## Azərbaycanı regionda informasiya texnologiyaları marşrutunun mərkəzinə çevirən dəhliz

*Trans-Avropa-Asiya fiber optik layihəsi elektron xidmətlərin genişlənməsinə, elektron ticarətin inkişaf etdirilməsinə səbəb olacaq*

«Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasında qarşıya qoyulan başlıca hədəflərdən biri yeni informasiyalı cəmiyyətinin qurulması üçün informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqinin genişləndirilməsidir. Konsepsiyada qarşıdakı 10 ildə İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi istiqamətində etibarlı təhlükəsizlik sisteminin yaradılması, milli standartların formalaşdırılması və ölkə üzrə tam rəqəmsal yayımın tətbiq olunması və analoq yayımın dayandırılması, eləcə də e-dövlət xidmətlərinin 100 faiz tətbiq edilməsi nəzərdə tutulur.

***Qarşıdakı 10 ilin hədəfi -***
***İKT-nin geniş tətbiqi...***

Konsepsiyada İKT-nin yüksək inkişafının ölkəmizdə dövlət hakimiyyəti orqanlarının irimiqyaslı informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə keçməsinə səbəb olacağı qeyd edilir. Hazırda Azərbaycanda aparılan islahatların əsas motivi elektron formada dövlət xidmətlərinin göstərilməsinə keçiddir. Əhəmiyyətli investisiyalar və səylər də məhz bu istiqamətdə cəmləşib. Təhsil, telekommunikasiya, səhiyyə, nəqliyyat və digər sahələrdə artıq bəzi informasiya sistemləri yaradılıb. Ölkə rəhbərliyinin bəyan etdiyi informasiyalaşdırma və dövlət elektron xidmətlərinin tətbiqi kursu saxlanılır, həyata keçirilən bütün tədbirlər elektron hökumətin qurulması kimi bir məqsəd üzrə birləşib.

Konsepsiyada respublikamızın regionda trans-informasiya dəhlizləri şəbəkəsinin mərkəzi nöqtəsinə çevrilməsinə diqqət çəkilir. Azərbaycanın regionda artan nüfuzu və nəhəng layihələrin təşəbbüskarı kimi liderliyini davam etdirməsi yeni nəqliyyat, infrastruktur, enerji, telekommunikasiya layihələrinin reallaşmasına zəmin yaratmaqdadır. Respublikamızın son illər informasiya texnologiyaları sayəsində yüksək inkişaf mərhələsinə qədəm qoyması regionda trans-informasiya dəhlizlərinin reallaşmasında bir daha təşəbbüskarlığını təsdiqləyir. Azərbaycan hazırda region ölkələrinin və beynəlxalq təşkilatların diqqətini cəlb edən ən nəhəng layihənin - fiber optik informasiya dəhlizinin müəllifi kimi diqqəti cəlb etməkdədir. Trans-Avropa-Asiya dəhlizi adlanan bu layihə Xəzər dənizinin dibi ilə geniş zolaqla rabitə şəbəkəsinin yaradılmasını nəzərdə tutur.

***Şərqlə Qərb arasında***
***kommunikasiya dəhlizi...***

«Multimedia» İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüzün sözlərinə görə, Azərbaycan hazırda regionda enerji layihələrinin tranzit mərkəzinə çevrilməklə yanaşı, ən mühüm strateji qlobal layihələrin əsas nöqtəsi kimi xüsusi əhəmiyyətə malik məkan hesab olunur. Respublikamız hazırda «Trans-Avrasiya Super İnformasiya Magistralı» layihəsinin əsas coğrafi seqmenti sayılır. Layihə Qərblə Şərq arasında super informasiya magistralının yaradılmasını nəzərdə tutur. Bu layihə bütün informasiya-kommunikasiya vasitələrinin qarşılıqlı mübadiləsinə səbəb olacaq. Kabel magistralı İran və Fars körfəzi regionunu şərq marşrutu vasitəsilə Hindistan və Uzaq Şərq ilə, Qərb marşrutu vasitəsilə Avropa ilə birləşdirəcək.

Layihə Avrasiya və Sakit okean ölkələri arasında rabitə dəhlizi rolunu oynayacaq. Azərbaycanın koordinatoru olduğu layihə çərçivəsində Avropa və Asiya regionunun bir çox dövlətləri İKT-nin imkanlarından birgə faydalanacaq. Qərbi Avropadan Sakit okean hövzəsi ilə Şərqi Asiyaya qədər uzanan magistral rabitə dəhlizi ən azı 20 ölkəni əhatə edəcək. Xatırladaq ki, Azərbaycanın müəllifi olduğu bu layihənin gerçəyə çevrilməsi üçün ilkin dövrlərdə bir sıra problemlər ortaya çıxmışdı, Xəzəryanı ölkələrin vahid mövqeyinin olmaması (əsasən də Türkmənistanın qeyri-müəyyənliyi) layihənin icrasını gecikdirirdi. Amma ötən ildən başlayaraq Türkmənistanın layihədə iştirakla bağlı qəti mövqe nümayiş etdirməsi Trans-Avropa-Asiya fiber optik layihəsinin reallaşmasına səbəb olub.

Xəzər dənizinin dibi ilə çəkilən magistral Türkmənistan üçün mühüm əhəmiyyət daşıyır və rəsmi Aşqabad layihəyə qoşulmaqla Mərkəzi Asiyanın rabitə qapısına çevrilə bilər. Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəstəklədiyi transmilli magistrala Türkiyənin də marağı böyükdür. Türkiyə Trans-Avropa-Asiya magistralının informasiya resurslarının perspektivlərini yüksək dəyərləndirir və layihənin başa çatdırılması üçün konsorsium yaradılmasını təklif edir. Azərbaycan üçün daha böyük əhəmiyyətə malik fiber optik kabelin həyata vəsiqə alması Orta Asiyadan gələn trafiklərin respublikamızın üzərindən keçməklə transkontinental şəbəkənin yaranmasına səbəb olur ki, bununla da Azərbaycan bu magistraldan ən çox istifadə edə bilən ölkəyə çevriləcək.

***İkinci TransXəzər layihəsi...***

İkinci TransXəzər adlandırılan bu layihə Qərblə Şərq arasında yüksək sürətli informasiya magistralının qurulmasına baza yaradacaq. Mütəxəssislərin fikrincə, bu layihənin reallaşması dünya miqyasında informasiya texnologiyalarının genişmiqyaslı tətbiqinə və ümumiyyətlə, regional iqtisadi inkişafa yeni təkan verəcək. Layihə Azərbaycanın coğrafi mövqeyindən, inkişaf səviyyəsindən və başlıcası, onun regionda aparıcı iqtisadi potensiala malik olmasından irəli gələrək, ölkəmizdə beynəlxalq kommunikasiya mərkəzinin və qlobal informasiya bankının yaradılmasını nəzərdə tutur. Bütün bunlar ölkəmizin son beş ildə bütün iqtisadi bölmələr kimi, rabitə sektoruna böyük diqqətinin və maliyyə təminatının artırılmasının təzahürüdür.

Azərbaycanın siyasi və iqtisadi nüfuzunun möhkəmlənməsi nəhəng enerji və nəqliyyat layihələrinin miqyasının genişlənməsi ilə bərabər, bölgədə yeni-yeni istiqamətlər üzrə proqramların, layihələrin reallaşmasına səbəb olur. Respublikamız Qərblə Şərq arasında həm enerji, həm nəqliyyat, həm də informasiya texnologiyaları dəhlizlərinin mərkəzi olmaqla, regionun təhlükəsizliyinin təminatçısına çevrilir.

Ekspertlərin fikrincə, «Trans-Avrasiya Super İnformasiya Magistralı» layihəsinin reallaşması region ölkələri arasında rəqəmsal fərqin aradan qaldırılması, güclü və dayanıqlı informasiya infrastrukturunun yaradılması hesabına ucuz və keyfiyyətli genişzolaqlı internetə çıxışın təmin edilməsi ilə yanaşı, elektron xidmətlərin genişlənməsinə səbəb olacaq. Elektron hökumətin formalaşdırılması, dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişlənməsi, vahid infrastruktur əsasında təhlükəsiz informasiya mübadiləsinin həyata keçirilməsi təmin ediləcək. Bu nəhəng trans-kommunikasiya şəbəkəsi ölkəmizdə elektron ticarətin, e-bazar sisteminin inkişaf etdirilməsində mühüm rol oynayacaq.

Elbrus CƏFƏRLİ